# Fənn kurikulumlarının tətbiqi üzrə təlim kurslarının təşkili barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

2016-2017-ci dərs ilində ümumtəhsil məktəblərinin I-IX siniflərində dərs deyəcək və kurikulum təlimlərindən keçməyən müəllimlərin fənn kurikulumlarının tətbiqi sahəsində nəzəri və praktik hazırlığını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"-nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2016-2017-ci dərs ilində ümumtəhsil məktəblərinin I-IX siniflərində dərs deyəcək və kurikulum təlimlərindən keçməyən müəllimlər üçün fənn kurikulumlarının tətbiqi üzrə təlim kursları təşkil edilsin.

**2.** Fənn kurikulumlarının tətbiqi üzrə təlim kursları rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin) təşkilatçılığı ilə yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

**3.** Təhsil Nazirliyinin tabeliyində olan ümumi təhsil müəssisələrinin I-IX siniflərində dərs deyəcək fənn müəllimləri həmin müəssisələrin yerləşdikləri ərazilərdə, məcburi köçkün məktəblərinin həmin kateqoriyadan olan müəllimləri isə məskunlaşdıqları rayonlarda (şəhərlərdə) təşkil edilən təlim kurslarına cəlb olunsunlar.

**4.** Təhsilin inkişafı proqramları şöbəsi (E.Əmrullayev) və Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (V.Yaqublu) təlim kursunu bitirmiş müdavimlərin qiymətləndirilməsini və sertifikatların hazırlanmasını təmin etsinlər.

**5.** İnformasiya şöbəsi (E.Əliyev) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və əmrin çoxaldılıb yerli təhsili idarəetmə orqanlarına göndərilməsini təmin etsin.

**6.** Əmrin icrasına nəzarət nazir müavininə (C.Bayramov) həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının**
**təhsil naziri**

*24 avqust 2016-cı il*